# TƏYYAR SALAMOĞLUNUN DÜŞÜNCƏLƏRİ



Qəzənfər Kazımov
*Əməkdar Elm Xadimi*

T.Salamoğlu xeyirxah bir iş görmüş, öz qısa ömründə bir sıra maraqlı tarixi romanlar müəllifi kimi şöhrət qazanmış yazıçı Fərman Kərimzadənin “Qarlı aşırım” romanının tədqiqi əsasında maraqlı bir tədqiqat - “Qarlı aşırım”dan keçən yollar” monoqrafiyasını (Bakı, “Orxan” NPŞ MMC, 2016) ortaya çıxarmışdır.

Əsərin girişində müəllif keçən əsrin 30-cu illərində yaranmış “İki od arasında” (“Qan içində”), “Qılınc və qələm” romanlarını tarixi roman janrının ilk nümunələri kimi dəyərləndirmiş, Azərbaycan ədəbiyyatının bu istiqamətdəki sonrakı inkişaf mərhələlərinə qısa nəzər salmışdır. Müəllifin fikrincə, ictimai-siyasi şəraitlə əlaqədar xeyli boşluqdan sonra 60-cı illərdə “sosrealizmin estetik prinsiplərinin çərçivələrini dağıtmaq təşəbbüsləri” bəhrə vermiş, “Dəli Kür”, “Qarlı aşırım”, “Məhşər”, “Geriyə baxma, qoca” kimi uğurlu tarixi romanlar yaranmışdır: “Əgər söhbət həqiqi estetik başlanğıcdan gedirsə... F.Kərimzadənin “Qarlı aşırım”ı məhz bu estetik başlanğıcın davamı kimi gəlir və bizim qəti qənaətimiz bundan ibarətdir ki, İ.Hüseynovun “Məhşər”i, İ.Əfəndiyevin “Geriyə baxma, qoca”sı “Dəli Kür”lə başlanan, “Qarlı aşırım”la davam edən prosesi mərhələ kimi təsdiq etməyə tamamilə əsas verir” və “əlamətdar cəhət də bu idi ki, mərhələnin əsas təmsilçiləri tarixin ənənəvi təsviri ardınca getmədilər, tarixə analitik nüfuzu məqsədə çevirərək, onu izah etməyə və fəlsəfəsini aşkarlamağa nail oldular”.

T.Salamoğlu əsərini mövzunun tədqiqi tarixindən başlamışdır. Bu, lazım idi, çünki sovet hakimiyyətinin tam oturuşmuş vaxtlarında belə bir əsər yazmaq cəsarət tələb etdiyi kimi, belə bir əsəri obyektiv qiymətləndirə bilmək bacarığı da lazım idi. Müəllifin fikrincə, Y.Qarayev, A.Əfəndiyev, X.Əlimirzəyev, A.Hüseynov, N.Cəfərov kimi analitik təfəkkür və cəsarət sahibləri ilə yanaşı, romanın əhatə etdiyi 30-cu illər düşüncəsindən irəli gedə bilməyən “tənqidçilər” də vardı. Odur ki, müəllif onların da bədii-estetik, sosial-ictimai görüşlərindəki gerilikləri tənqidi şəkildə nəzərdən keçirməli olmuşdur. Müəllif yazır: “Qarlı aşırım”ım meydana çıxdığı illərdə tənqidi düşüncə estetik düşüncədən geri qalır, mövzunun işlənməsində milli psixologiyanın önə çəkilməsinin tarixin həqiqətlərinin daha dərindən və obyektiv açılmasına xidmət etməsini dəyərləndirə, başqa sözlə, dərk edə bilmirdi. ...tənqid qəhrəmanın millilik keyfiyyətlərini onun sinfi təbiətinin xarakterinə görə dəyərləndirirdi”. Müəllifin - T.Salamoğlunun bu məqamda aydınlaşdırmaqda olduğu ən mühüm keyfiyyət ondan ibarətdir ki, sovet dövrü nəsrinin ilk mərhələsində millilik bədii əsərdə “naxışlar, çalarlar səviyyəsi”ndə idisə, yeni mərhələdə “təpədən dırnağa qədər milli insanlar” təsvir edilirdi, lakin tənqid geri qalır, milliliyə ayıq münasibət bəsləyə, gerçəkliyi aşkara çıxara bilmir, yenə naxışlar, çalarlar səviyyəsində kommentariyə ilə məşğul olurdu; tənqid milliliyi “əsərin bütöv məzmununda yox, ayrı-ayrı obrazların xarakterində axtarırdı”, “romanın konfliktini üst qatdan qavrayırdı”.

T.Salamoğlu ilkin ədəbi tənqidin kasıb və yoxsul təbəqədən olan Qəmlonun inqilab tərəfdarlarına qarşı əzazilliyindən, qan tökmək hərisliyindən, özünü cəllad kimi aparmasından “baş açmadığını”, Qəmlonu “anlaşılmaz” bir obraz hesab etdiyini (X.Əlimirzəyev, A.Əfəndiyev və b.) qeyd edərək maraqlı bir qarşılaşdırma aparmış və yazmışdır: “Aşağı təbəqəyə mənsub Qəmlonun yuxarı təbəqəyə mənsub Kərbəlayı İsmayılın yanında olması tənqid üçün qəbuledilməz və anlaşılmaz (əsl həqiqətdə isə qəlibəsığmaz) olduğu halda və bu cəhət əsərin bədii məntiqinin bütövlüyünə xələl gətirən keyfiyyət hesab edildiyi halda, varlı təbəqəyə mənsub Abbasqulu bəyin aşağı təbəqənin yanında olmasında heç bir məntiqsizlik axtarılmır. Halbuki F.Kərimzadə Qəmlonu hansı məntiqlə Kərbəlayının yanında təsvir edirsə, həmin məntiqlə də Abbasqulu bəyi İmanın yanında təsvir edir”. T.Salamoğlu bunu çox düzgün olaraq, sinfi təbiətlə deyil, “obrazın psixologiyası, insani xarakterinin gücü” ilə bağlı izah etmişdir. Müəllif tənqidin belə “anlaşılmazlıqlar” içərisində qaldığı halların Kərbəlayı obrazı ilə Qəmlonun müqayisəsi prosesində də olduğunu üzə çıxarmışdır.




Kitabda tənqidi fikir ardıcıl şəkildə nəzərdən keçirilərək müəyyənləşdirilir ki, milliliyin obraza vurulan “naxış” kimi düşünüldüyü (A.Hüseynov) 70-ci illər tənqidindən fərqli olaraq, 80-ci illər tənqidi milliliyi obrazın xarakterində bütöv görür, nəticədə “tənqid “Qarlı aşırım”da ayrı-ayrı obrazların sinfi təbiətini millilikIə işıqlandırmağa can atmır, əksinə, “milli psixologiyanın ümumiləşdirici keyfiyyətləri”nin estetik təzahürünü müşahidə edir”. Başqa sözlə desək, Kərbəlayı İsmayıl “millətin əsas keyfiyyətlərini özündə simvollaşdıran obraz”, Qəmlo isə “adi insani keyfiyyətlərdən məhrum obraz” kimi təhlil olunur və bu cür təhlil əsasında obrazların təhlilində sinfilik arxa, millilik ön plana keçir.

“Qarlı aşırım”ın bədii mətn həqiqətləri” fəsli ilə müəllif yazıçının söylədiyi bədii həqiqətlərin təhlilinə keçmişdir. Lakin təhlilə başlamazdan əvvəl, təbii ki, hadisələrin baş verdiyi qədim Azərbaycan yurdlarından biri olan, Fərmanın özünün doğulduğu Vedi mahalı barədə yığcam məlumat vermişdir. Başqa bir sıra ərazilər kimi, bu yerlərin əhalisi də mənhus qonşularımızın ucbatından dəfələrlə ağır məhrumiyyətlərlə üzləşməli olmuşlar.

Fərman Kərimzadə “Vedinin yanı dağlar” xatirə-əsərində göstərir ki, “Xalqın yaddaşında qalan ən dəhşətli köçürmə 1919-cu ildə olub. Beş daşnak generalı ilə ikiillik döyüşdən sonra Abbasqulu bəy Şadlinski cəhbəni yararaq eli sağ-salamat Cənubi Azərbaycana aparıb. 1921-ci ildə isə yenidən geriyə qaytarıb”.

Kərbəlayı İsmayıl və Qəmlo surətlərinin müqayisəli təhlili prosesində müəllif ən incə cəhətləri nəzərə ala bilmiş, obyektiv təhlil aparmışdır. Əsaslandırmışdır ki, sonralar peşman olsa da, yenidən öz mənliyini bərpa etməyə çalışsa da, Abbasqulu bəyin qətlində günahkar Kərbəlayı özüdür, güllə Qəmlonun əli ilə atılsa da, əslində, fitva verən Kərbəlayıdır.

Abbasqulu bəy ona görə xalqın kədərinə səbəb olur ki, o bunu başa düşür. Kərbəlayı ona görə xalqın nifrət etdiyi, qorxduğu adamdır ki, o bunu başa düşmür, daim maddi və mənəvi ağalıq mövqeyindədir, özünü İmanla yanaşı qoya bilmir. Bunları nəzərə almamaqla, Abbasqulu bəyi “namus davası” səviyyəsinə endirməyə çalışmaq, bununla da onun tarixi rolunu cılızlaşdırmaq olmaz. Onun fəaliyyətini əhalini qırğından qurtarmaq ideyası ilə bağlamaq, yeni hökumətə də bu məqsədlə qoşulduğunu əsaslandırmaq onun dediyi bu sözləri nəzərə almamaqdır: “Kərbəlayı, bu hökuməti quranlardan biri də mən olmuşam”. Bu sözlərin müqabilində izah etməyə çalışmaq ki: “Abbasqulu bəyin öz torpaqlarını da, bütün var-dövlətini də, öz canını, bütün bacarıq və qabiliyyətini sovet hökuməti yolunda qoymasında heç vaxt dilə gətirilməyən bir amal var: el-obanı qorumaq, onun namusuna sahib çıxmaq” - Abbasqulu bəyi böyük tarixi xidmətlərindən məhrum eləmək, onu dünyagörüş etibarilə Kərbəlayıya tay qoymaqdır. Qaldı, sovet hökuməti kimin namusuna toxunurdu ki? Əslində, o namusu sovet hökuməti möhkəm qorudu. İndi pozurlar o namusu. Bu cəhətdən A.Əfəndiyevin aşağıdakı tənqidi fikri daha obyektivdir. “Abbasqulu bəy mülkədar olub. Lakin inqilabi ideala bağlanıb, malını-dövlətini xalqa verib, qırmızı tabor yaradıb, sinfi mübarizələrdə qan töküb, yeni həyat tərzinin müdafiəçisinə, fədaisinə çevrilib”. Fakt bu cürdür. Kərbəlayının öz qardaşı oğlu Məhərrəm Abbasqulu bəyin öldürülməsi ilə bağlı elin sözünü belə ümumiləşdirmişdir: “Əmim elə bir iş gördü ki, heç vaxt yaddan çıxmayacaq. Abbasqulu bəyi öldürən adamın adı həmişə pisliyə çəkiləcək. O kişi canını, malını da camaata qurban vermişdi. Ona əl qaldırmaq bizi nəsilbənəsil incidəcək, əzab verəcək”. Amma bu məqamda T.Salamoğlu həqiqəti çox düzgün ifadə etmişdir: “Kərbəlayı niyə sarsılmışdı? Kərbəlayı qiyam qaldıranda namus davasına qalxmışdı. Ancaq Abbasqulu bəyin öldürülməsi namus davasına namussuzluq qatmışdı. Özü də bu namussuzluğa Kərbəlayı özü öz əli ilə imza atmışdı. Abbasqulu bəyin ölümündə Kərbəlayı İsmayıl öz ölümünü görürdü”. Buradakı son cümləni çox gözəl yozmaq olar: Kərbəlayı öz xislətinin gücü ilə qiyam qaldırıb mütərəqqi qüvvələrə qarşı dursa da, intuisiya ilə başa düşür ki, gələcək oradadır, onlar deyəndədir.

Əsərin sonrakı fəslini müəllif eposla romanın qarşılıqlı əlaqəsi məsələsinə həsr etmiş, “Qarlı aşırım”da epos ənənələrini araşdırmışdır. Tarixi təcrübə göstərir ki, roman janrı xalqların yaratdığı eposlar əsasında formalaşmış olur. Yəni şifahi ədəbiyyat nümunələrindən biri kimi, əvvəlcə epos yaranır və tədricən onun nümunəsi əsasında yazılı ədəbiyyatda roman janrı təşəkkül tapır. Bu fikir ümumi ədəbi inkişafın məntiqi baxımından da düzgün sayıla bilər. Eposun da yaranma şərtləri var. Eposun əsasında, V.Q.Belinskinin təbirincə, “ümumxalq ölçüsündə bir müharibə” durmalıdır. İkinci bir şərt kimi, həmin müharibənin yaranması ilə eposun əsasında duran əfsanələrin cilalanması üçün müəyyən müddət keçməli idi. “Qarlı aşırım”dakı hadisələrlə Fərman Kərimzadənin yazdığı roman arasında keçən müddət bu sonuncu şərtə cavab verir. Birinci şərt - müharibə üçün kollektivləşmə dövründə baş verən hadisələr əsas götürülür.

Monoqrafiyada “Koroğlu” eposu ilə də uğurlu müqayisələr var. İndiki quruluşa əl verir ki, “Koroğlu” eposunu yerli feodallara qarşı mübarizədən ayırıb, yalnız işğalçılara qarşı mübarizə dastanı kimi səciyyələndirsin. Bu da Koroğlunun qəhrəmanlarını cılızlaşdırmaq, onu xalqdan ayırmaq, birtərəfli izah etməklə nəticələnir. Bu cür izah Abbasqulu bəyə şamil edildikdə özünü heç doğrultmur.

Müəllif yazır: “XX əsrin tarixi reallıqlarını obrazlaşdıran roman qəhrəmanları öz səciyyələri etibarı ilə eposdan gəlir və onlara məxsus igidlik, ərənlik keyfiyyətlərinin daşıyıcısı kimi çıxış edir”. Bu mənada müəllif Abbasqulu bəy ilə Beyrəyin taleyi arasında uyğunluq görür: “Beyrəyin taleyi kimi, Abbasqulu bəyin də taleyində “xəyanət” motivi həlledici rol oynayır”. Bu hadisələrin səbəbi el içinə salınan nifaqla bağlı izah edilir.

Aruzun çağırışına əli silahsız gedən Beyrəklə əli silahsız olduğu halda Kərbəlayının görüşünə gedən, xəyanətin qurbanı olan Abbasqulu bəyin təsviri ilə bağlı müəllif çox maraqlı uyğunluqlar müəyyənləşdirmişdir. Lakin müəllifin yeni quruluşa münasibəti onun “silahsızlığ”ı da başqa cür qiymətləndirilməsinə səbəb olur: “Talıbovun “hamınız silahsız gedəcəksiniz” sözləri sovet hakimiyyətinin qəhrəmanlıq kultuna sitayişə son vermək qərarının ifadəsi kimi səslənir. Bu məqamda igidin silahı milli özgürlüyün, şəxsiyyətin azadlığının və gücünün simvolu kimi mənalanır. Talıbovun “silahları təhvil verin!” hökmü bu azadlığın sonunun gəldiyini işarələyir”.

Abbasqulu bəy böyük hörmət sahibidir. Bir ordunun üzərinə iki nəfərlə gedir. Silahı olsa, neyləyə bilərdi? Onu göndərənlər barışıq üçün göndərir, döyüş üçün yox. Kərbəlayı bunu başa düşmürsə, bunun harası ideala xidmət edir? Talıbov onun silahını alanda onu düşünür ki, o, Kərbəlayını və onun adamlarını xilas etmək istəyir, Kərbəlayı ağıllı adamdır, bunu başa düşər. Amma Kərbəlayı aşkar şəkildə cahillik göstərir. Elçini, həm də yaxşı niyyətlə gəlmiş dost elçini, xalq adamını öldürməzlər.

Əsərdə at-tabut məsələsindən çox geniş danışılmış, “Kitabi-Dədə Qorqud”da at məsələsi ilə romanda at məsələsi epos-roman ardıcıllığı kimi izah edilmişdir. Həqiqətdə də? Fərman Kərimzadənin ata münasibətində bir epos düşüncəsi vardır. “Kitabi-Dədə Qorqud”da bu məsələyə münasibətlə əlaqədar müəllif bir qədər təfsilata yer versə də, doğru nəticəyə gəlmişdir: “Maraqlı cəhət burasıdır ki, atla bağlı təsvirlər, onun gerçəkləşdirdiyi funksiya estetik düşüncənin məhsulu kimi yox, tarixi reallığın estetik düşüncədə əksi kimi dərk edilir... At - qəhrəman ünsiyyətinin dərinliyi, qəhrəmanın öz atına bağlılığı tarixin qəhrəmanlıq dövrlərinin həyat qanunu kimi təzahür edir. Atın öz sahibinə sevgisi, ona ürəkdən bağlanmasının psixoloji əsasında qəhrəmanın cəsarətli və mərd hərəkətləri həlledici rol oynayır”.

Beləliklə, müəllif bu kitabda “Qarlı aşırım” romanının geniş sosial-ictimai və bədii-estetik təhlilini vermiş, əsərin əsas məziyyətlərini üzə çıxarmağa çalışmışdır. O, roman janrının müasir səviyyədə inkişafı barədə Azərbaycan ədəbiyyatşünaslığında nihilist münasibətləri tənqid edərək yazır: “Avropa romanlarından danışarkən onun hər detalında, ştrixində olmazın sosial-siyasi və fəlsəfi məna axtarıb tapanlar sadəcə olaraq mənsub olduğu xalqın roman təsərrüfatını mütaliəyə lüzum görmür”. Bunlar həqiqətən belədir.

Obyektiv gerçəkliyi əks etdirən bu romanda xalqın azadlıq və xoş günlər uğrunda mübarizəsi əks olunmuşdur. T.Salamoğlu öz usta qələmi ilə bu mübarizənin mənzərəsini özünəməxsus yetkin üslub, təfəkkür və düşüncə ilə şərh etmişdir.